**Əlǝddinqızı, Nǝzakǝt**. Döyüşdǝ şücaǝt göstǝrǝn şǝhidimiz-Emin Mǝmmǝdov / N. Əlǝddinqızı // Sǝs. - 2020. - 5 dekabr. - **№ 218**. - S. 11.

Emin Vǝtǝn oğlu Mǝmmǝdov. Torpaq yolunda şǝhid olan, ǝbǝdi olaraq dünyamıza daxil olan Azǝrbaycanın igid oğlu. Qǝlbimizdǝ möhtǝşǝm bir abidǝsi ucalır. Bu şǝhidimizǝ olan ehtiram abidǝsidir. O, artıq bir ananın deyil, bütün xalqımızın qǝhrǝman oğludur.

Şǝhid Emin Vǝtǝn oğlu Mǝmmǝdov 1992-ci ilin avqustun 15-dǝ Beylǝqan rayonunun Qǝhramanli kǝndindǝ anadan olub. 1998-2009-cu illǝrdǝ şǝhid Tağı Mǝmmǝdov adına tam orta mǝktǝbi bitirdikdǝn sonra hǝrbi xidmǝtǝ çağırılmış vǝ hǝrbi xidmǝti başa vurduqdan sonra elǝ hǝrbi xidmǝtdǝ işlǝmǝyǝ qǝrar vermişdir. Uşaqlıqdan, yeniyetmǝliyindǝn canına, qanına hopmuşdu vǝtǝnpǝrvǝrlik, vǝtǝn sevgisi. Çevikliyi, iti gözü ilǝ hǝrbi xidmǝtdǝ xüsusi tǝyinatlı dǝstǝyǝ verilir.

Sonra Türkiyǝ hǝrbi qüvvǝlǝrindǝ türk ordusunun SNAYPER kursuna daxil olur. Türkiyǝdǝn gǝlǝndǝn sonra xüsusi tǝyinatlı kǝşfiyyatın baş sinaperçisi olur. Sanki Vǝtǝn müharibǝsinǝ vǝsiqǝ almaq üçün çalışırdı. Bilirdi ki, gec-tez ermǝni işğalçıların torpaqlarımızdan qovmaq zamanı yetişǝcǝk. Atlı olub yol gedirdi. Hǝrbi xidmǝtdǝ olduğu dövrlǝrdǝ bir çox fǝrqlǝnmǝ mükafatlarına layiq görülür.

27 sentyabr tarixindǝ Vǝtǝn müharibǝsi başlayanda Emin dǝ ön cǝbhǝdǝ Füzuli istiqamǝtindǝ igidliklǝ döyüşür. Füzulinin alınmasında vǝ üç ermǝni postunun alınmasında iştirak edir. Düşmǝni lǝrzǝyǝ salan Emin 50-yǝ yaxın ermǝni ǝsgǝrini mǝhv edir. Ermǝniyǝ Azǝrbaycan oğlunun, döyüşçüsünün gücünü göstǝrir. Elǝ Füzulidǝ dǝ igidcǝsinǝ şǝhid olur.

Müqǝddǝs Vǝtǝn torpağını qanı ilǝ suvaran oğullardan bir kimi yaddaşlarda iz salır. Vǝtǝnin harayına, sǝsinǝ sǝs verib müqǝddǝs şǝhidlik zirvǝsinǝ yüksǝlib. Artıq bir ana övladından el oğluna çevrilib.

Vətənin şəhid oğlu. Şərəflidir bu yol. Hər zaman fəxarətlə vüqarından söz açacağıq 28 yaşlı Eminin. Vətən savaşında şücaət göstərərk düşmənə dönməzliyini sübut edən Emin Məmmədov kimi şəhidlərimiz, qazilərimiz bir tarix yazdılar. Xalqın adını uca tutan igidlərimizdən bir kimi Eminin də həyat yolunun hekayəsi var. Oxuduqca son yetməyəcək hekayə. Arzusu, həyatı yarımçıq qaldı, amma ən yüksək zirvəyə yüksəldi – Şəhidlik! Adının qarşısına baş əyirik bizim QƏHRƏMAN. Allah rəhmət eləsin!

Nəzakət ƏLƏDDİNQIZI